POETİK DÜŞÜNCƏNİN YARATDIĞI OBRAZ

Şəddat CƏFƏROV,
iqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru,
Azərbaycan və Rusiya Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü,
Beynəlxalq Yazarlar Birliyinin üzvü

Ədəbiyyatda ithaf şeirlərinin tarixi kifayət qədər qədimdir. Nizami Gəncəvidə də, Füzulidə də və üzü bəri Azərbaycan ədəbiyyatının görkəmli simalarının yaradıcılığında konkret adamlara həsr olunmuş şeirlər kifayət qədər çoxdur. Doğrudur, ayrı-ayrı adamlara həsr olunmuş şeirlərə, bədii nümunələrə ikili münasibət də hiss olunur. Ancaq bir anlığa Nizaminin, Qətran Təbrizinin, Xəqaninin mədhiyyə əsərlərini ədəbiyyatımızdan götürməli olsaq, çox böyük boşluq alınardı. Axı hər hansı bir şairə bunu yazma, onu yaz və yaxud göstəriş vermək olmaz.

Şairlər könül adamlarıdır. Onlar həyatda rastlaşdıqları hadisələri, lap elə konkret adamları müşahidə edir, onların düşüncələrində əks-səda verən müəyyən duyğuları poetik şəkildə qələmə alırlar. Bunun üçün birmənalı olaraq şairin könlünü ovlayan, qəlbinə xoş ovqat bəxş edən obraz olmalıdır. Demək olar ki, ithaf şeirlərinin əksəriyyətində şairin ilhamını qanadlandıran dostluq hissləri dayanır. Və əlbəttə, bir də şairin seçdiyi obraza hörmətli, ehtiramlı münasibəti poetik əsərin yazılması üçün əsas olur.

Açığı, haqqımda yazılmış çoxlu əsərləri son vaxtlar imkan düşdükcə təzədən mütaliə edirəm. Hər bir müəllifin haqqımda yazdığı əsərin yazılma səbəbi, tarixi yaddaşımda canlanır. O qədər maraqlı xatirələr yaddaşımda təzədən oyanır ki, bunları qələmə almaqla ayrıca bir kitab yazmaq olar.

Əli Rza Xələflinin və Ceyhun Zalımın *"Böyük portretin işığı"* kitabının I cildində haqqımda yazılmış bədii əsərlərin təhlili xüsusi yer tutur. Əlbəttə, sənədli romanların, publisistik əsərlərin hər birinə ayrıca diqqət yetirməli olsam, onda söhbətim çox uzanar. Amma indi məqsədim şairlərin haqqımda yazdığı poetik əsərlərin təhlilə çəkilməsinə bəlkə bir qədər ötəri də olsa, münasibət bildirmək fikrindəyəm. *"Böyük portretin işığı"* kitabının ayrıca bir bölməsi *"İnsanlığın poeziyası"* adlanır. Bu bölmədə görkəmli şairlərin poetik örnəkləri təhlilə çəkilib.

Bəs necə olub ki, bu şairlərin hər biri mənim obrazıma poetik yanaşma ilə münasibət bildiriblər.

Əvvəllər də demişəm, elə müəlliflər də öz yazılarında belə bir həqiqəti diqqətə çəkirlər ki, şairlərlə mənim ünsiyyətimin əsasında nəşr, çap məsələləri dayanırdı.

Elə şairlər vardı ki, onlar illərlə nəşriyyatların qapısını döyür, amma kitablarının çapına nail ola bilmirdilər. Mən onların necə əzab və iztirab çəkdiklərini müşahidə edirdim. Hətta elələri də olurdu ki, illərlə uzanan çap məsələsi onları yaradıcılıqdan bezdirir, usandırırdı. Bu, əlbəttə, bir insan kimi mənim qəlbimi ağrıdırdı. Bir çox hallarda qabağa düşürdüm. Müəlliflərin açа bilmədiyi qapıları açıb, onların istəklərinin yoluna qoyulması üçün təşəbbüs göstərirdim. Müəyyən səviyyədə müəlliflərin *"İnsanlığın poeziyası"* adlandırdıqları bölmədə bu barədə söhbət açılır. Müəlliflər çox həssaslıqla şairlərə münasibətimin əsasında dayanan fikir məqamlarına işıq tuturlar: *"Ədəbi mühit son altmış ildə, yəni Şəddat Muğdatoğlunu iyirmi yaşından üzü bəri yaşadığı ömürdə diqqətdən kənarda qoymayıb. Bu da əslində Şəddatın təbiəti ilə bağlıdır. Dövrünün yazarları ilə sıx ünsiyyətdə olub. Imkanı düşdükcə onlara kömək edib, əl tutub, əsərlərinin nəşrinə şərait yaradıb.*

Yazıçının, şairin, söz adamının sovet dövründə ən böyük problemi əsərlərinin nəşri ilə bağlı idi. Azərbaycan ədəbiyyatının görkəmli simaları ola biləcək istedad sahibləri yazılarını qoltuqlarında gəzdirirdilər. Onlar aydan aya, ildən-ilə ötən növbələr gözləyirdilər. Belə böyük istedad sahiblərindən heç olmasa birinin adını çəkməli olsam, gərək Məmməd Ellini xatırlayım. Şəddat Cəfərovun timsalında düşünürəm ki, əgər Məmməd Elli zamanında belə bir xeyirxah insana rast gəlsəydi, dövrünün necə böyük elm adamı kimi tanınardı. Sovet dövrünün altmışıncı illəri yazarların üzünə açdığı nəfəsliyi əslində yetmişinci illərdə bağlamışdı. Demək təfəkkür sahibləri, yeni tərzdə düşünən insanlar üçün çap olunmaq az qala həyati bir əhəmiyyət kəsb edirdi". Diqqət göstərə bilən oxucu burada Məmməd Elli adında şairin adının çəkildiyini müşahidə edə bilər. Müəlliflərin yazdığı kimi o istedadlı qələm sahibi idi. Çap problemlərini həll edə bilməməyin ucbatından şair kimi parlaya bilmədi. Doğrudur, hər hansı bir qələm sahibi cəmiyyətdə özünü təsdiq edə bilmirsə, bu onun şəxsi faciəsidir. Amma onu bir şair kimi itirməyimiz xalqımızın mənəvi mühitinə dəymiş ölçüyəgəlməz bir zərər kimi başa düşülməlidir. Bəli, belə idi. Müəlliflər doğru yazır: *"Nə ədəbi dərgilər, nə də dövrün kütləvi mətbuat orqanları asanlıqla şairin üzünə qapı açmırdı. Yazıçının əsərini nəşr etməklə ona sevinc bəxş eləmirdi. Amma, Şəddat Cəfərov bir başa bu nəşriyyat sahəsinin içərisində olduğundan, söz-sənət adamlarına dəyərli məslahətlərini əsirgəmirdi. Yeri gələndə yazısı qoltuğunda qalmış olan istedadların qolundan tutub ərki ötən səlahiyyət sahiblərinin yanına aparır, mümkün köməyin göstərilməsi üçün xaişlərini əsirgəmirdi. Beləliklə, Şəddat Cəfərov altmışıncı illərdən üzü bəri söz-sənət adamları arasında xeyirxah bir insan, qayğıkeş bir dost kimi tanınmış və nəhayət məşhurlaşmışdı".* Bu günün oxucusu üçün bütün bunlar qəribə görünə bilər. Çünki indi nəşr məsələsi hər kəsin öz imkanına bağlıdır. Adamlar imkanlarını səfərbər edib kitablarını çap etdirə bilərlər. O dövrdə isə hər bir müəllifin sözünü deyən nüfuzlu bir şəxsə xüsusi ehtiyacı vardı.

Mən lap gəncliyimdən cəmiyyət üçün açıq adam olmuşam. Xüsusilə yaradıcı adamlara münasibətdə həmişə humanist mövqe tutmuşam. Bəzən bir şair yanıma gəlir, kitabının çapını görmək istəyi ilə mənə üz tuturdu. Əlbəttə, mən asanlıqla hər hansı bir təsadüfi adama kömək edə bilməzdim. Ona görə də, xüsusilə, gənc, tanınmamış şairlərə deyirdim ki, əsərlərindən nümunələr oxusunlar. Mən də çox diqqətlə dinləyirdim. Əgər şairin yazdıqları sənət əsəri idisə, onda kömək eləməyi özümə borc bilirdim. Bir də ki, şairlərin əsərlərinin çapı onlar üçün həyati məsələ idi. Bir çox şairlər haradasa cüzi maaşa işləyirdi. Hətta bir çoxu da ancaq yaradıcılıqla məşğul olurdu, yəni işləmirdilər. Əgər bələlərinin kitabları çap olunmasaydı, onda onların ailə vəziyyətinin necə ola biləcəyini düşünmək elə də çətin deyildi.

"Böyük portretin işığı" kitabında söz-sənət adamlarına münasibətin psixoloji kökləri çox həssaslıqla araşdırılıb. Hətta elə olurdu ki, bəzən şairlərin əsərlərinin ittifaq miqyasında rus dilinə tərcümə məsələsi ilə də müəyyən əlaqələrin yaradılmasına köməyimi əsirgəmirdim. İndi *"Böyük portretin işığında"* kitabından müəlliflərin qeydlərini oxuduqca yaddaşımın alt qatında qalmış təəssüratlarım təzədən oyanır. Hiss edirəm ki, müəlliflər o dövrün mühitini kifayət qədər aydınlığı ilə veriblər: *"Belə bir dövr, belə bir zaman insanın mənəvi mühitinin ziddinə dururdusa, qələm adamı əlacsız vəziyyətdə qalırdı. Çünki, qələm adamının yazdıqları iki cəhətdən önəm daşıyırdı. Birincisi o idi ki, hər bir qələm adamının həyatı maddi baxımından özünün yazdıqlarından asılı idi. Gərək yazdıqları çap olunaydı ki, müəllif olaraq da aldıqları qonararla dolana biləydilər. Ikincisi də qələm adamının yazdığı müəllif olaraq onun mənəvi baxımdan diriliyini təmin edirdi. Buna görə də yazının çap olunmağı müəllif üçün həyati əhəmiyyət kəsb edirdi. Bax belə bir dövrdə Şəddat müəllim müəlliflər üçün humanist bir qapı açа bilmişdi. Ən müxtəlif cəhətdən onlara bu qapıdan keçə bilməyin yolunu göstərirdi. Müəlliflər Şəddat Cəfərovla tanış olmaqlarından məmnunluq duyurdular onun yaradıcı mühitinə xüsusi qayğı göstərməyini əslində qeyri-adi bir hal kimi qavrayırdılar. Hətta Azərbaycanlı müəlliflərə Moskvalı və o dövrün digər əyalətlərindən olan müəlliflər çapa necə yol tapdıqlarını soruşanda bizimkilər Şəddat müəllimin adını çəkirdilər. Ittifaqın digər yerlərində belə Şəddat müəllimin adı əfsanələşirdi. Qeyri adi güc sahibi kimi onun adı xarakterizə olunurdu. Bəli, heç kimin adına yox yerdən əfsanələr, nağıllar uydurulmur, tərənnüm, sevgi nəğmələri bəstələnmir. Elə bu səbəbdən də Şəddat müəllim haqqında elə öz zamanında çoxlu publisistik yazılar dərc olunur, oçerklər, hekayələr qələmə alınır və ən başlıcası dövrün tanınmış şairləri tərəfindən onun dolğun, poetik obrazı da yaradılırdı. Bu qeydlərimdə həmin bədii örnəklərdən bir neçəsini diqqətə çəkmək istərdim".* Hər bir insan müəyyən müddətdən sonra həyatının keçmişdə qalmış, xatirəyə dönmüş zamanlarını yaddaşında vərəqlədikcə ona ən çox xoş gələn səhifələr özünün xeyirxahlıq məzmunu daşıyan əməlləridir. İndi düşünürəm ki, əgər vaxtı ilə həmin şairlərə, söz-sənət adamlarına dayaq olmasaydım, həyatımın hansı səhifələri ilə bu cür fərəhlənə bilərdim.

Onu da qeyd edim ki, xeyirxah insan başqalarına kömək edəndə, ona isti münasibət göstərəndə insanlıq borcunu yerinə yetirmiş olur. Həmin şəxs də həyatının mənasını məhz həmin xeyirxahlıqdan qaynaqlanaraq daha məzmunlu görür. İndi mənim üçün fərəh gətirən duyğular gördüyüm işlərin daha çox başqasına fayda verməsi ilə bağlıdır. Mənə qalan mənəvi zövqdür.

Şair Həmid Abbası 70-80-ci illərin söz-sənət adamları, ədəbiyyatsevərlər indi də yaxşı xatırlayırlar. Onunla aramızda çox ciddi dostluq münasibətləri vardı. Demək olar ki, bayram günlərində ailəvi görüşlərimiz də olurdu.

Kitabda Həmid Abbasla mənim münasibətimə aydınlıq gətirən yazı Həmid Abbasın nəğmələri adı ilə təqdim olunur. Həmin hissəni oxuduqca indi əbədiyyətdə olan dostumun həyat yolu gözlərimin önündə canlanır. Onun mənə həsr etdiyi şeirlərini xəyalən bir də oxuyuram: *"Həmid Abbas uzun illər Azərbaycanda həmkarlar təşkilatına rəhbərlik edib. Ancaq, hər vaxt söz-sənət adamları ilə dostluğa önəm verib. Şəddat Cəfərovla da dostluğu ömrünün axırınacan qırılmaz olub. Şəddat müəllim bu gün də dostunu yad edir, haqqında dəyərli xatirələr danışır. Müxtəlif görüşlərdə, tədbirlərdə Həmid Abbas haqqında dostluğunu yeni nəslə örnək kimi xatırladır. Həmid Abbas Şəddat Cəfərova və onun ailəsi ilə bağlılığından irəli gələn doğmaları tərənnüm edən şeirlər həsr edib. "Bakıda bir payız günü", "Bəhrələnsin bu vəhdətdən", "Ömrünüz gülüstan olsun"... şeirlərində Şəddatın qonaqpərvərliyi, onun ailəsinin mehribanlığı... tərənnüm olunur. Ailənin hər bir üzvünə istəkli münasibət, isti və doğma münasibət bu şeirlərdə hiss və duyğu kimi oxucunun ruhuna axır. "Bakıda bir payız günü" şeirinin son iki bəndini diqqətə çəkmək bəs eləyir ki, Həmid Abbasla Şəddat Cəfərov arasındakı ünsiyyətin qırılmazlığını duyasan".* Hətta bu hissəni diqqətlə oxuyanda müəlliflərin Həmid Abbasla mənim aramdakı isti münasibətə bələdliklə qələmə aldıqları yazıda təəccübümə səbəb olan məqamlar da var. Elə bil ki, müəlliflər Həmid Abbasla mənim dostluğumun tarixini yaxşı öyrəniblər. Mövzuya da çox əhatəli və diqqətli yanaşma ilə münasibət bildiriblər.

Doğrudan da, Həmid Abbas çox isti, mehriban bir dost idi. Hər görüşümüz onun üçün bir şeirə çevrilirdi. Və öz şeirlərində bir süfrə arxasında birbirimizə olan doğma münasibətin də hər tərəfini görmək elə də çətin deyil.

O vaxt qardaşımın özü,
Plova çağırar bizi,
Bax beləcə keçər günlər,
Artar eldə toy-düyünlər.

Kaş bu evdə, bu ocaqda,
Həm yaxında, həm uzaqda.
Şənlik, büsat olsun hər an,
Həmid Abbas yazsın dastan.

Şeirdə şairin özünün dediyi kimi o doğma münasibəti, dostluğumuzu çox böyük istəklə tərənnüm edirdi. Demək olar ki, Həmid Abbasın qələmində aramızda olan münasibət zaman-zaman yazıla-yazıla bir dastana çevrilirdi.

(Davamı 11-ci səhifədə)

POETİK DÜŞÜNCƏNİN YARATDIĞI OBRAZ

(Əvvəli 10-cu səhifədə)

"Həmid Abbasın nəğmələri" başlığı altında verilmiş yazıda həmin dövrün dostluq səhifələri o qədər canlı və isti verilib ki, yazı yaddaşımı bütün əhatəliliyi ilə oyadır. Həmin dövrün şirin xatirələri qəlbimi ovundurur.

Bəs insan başqa cür həyatından fərəhini necə duya bilər?! Mənə elə gəlir ki, həyatımın bir parçası olan o dostluq münasibətləri indi də dəyərini itirməyib. Doğrudur, mətndə adları çəkilən övladalrım böyüyüblər, ailə sahibidirlər. Amma mətn məni onların uşaqlıq çağlarına aparır: "*Azərbaycanda qədim adətdir, ailədə yenilik olanda, əlamətdar günlərdə, dost qonaq çağrılar. Sevgi ilə süfrə açılar. Ən başlıcası elə süfrələrin ən üstün yeməyi plov olar. Həmid Abbas da ailənin doğması kimi, ailə başçısının əziz dostu kimi Şəddatgildə həmin gün qonaq olur. Yazdığı şeirdə də həyatın xoş üzünü tərənnüm edir, dünyaya göz açan körpələrə xoşbəxtlik diləyir. Şeirin əsas vəziyyəti bu ailənin cəmiyyətə örnək tutularaq tərənnüm olunmasıdır. Həmid Abbasın növbəti şeiri Şəddat Cəfərovun oğlu İdrak bəyin Rəna xanımla ailə qurması münasibəti ilə yazılıb. Müəllif şeirini "Bəhrələnsin bu vəhdətdən" adlandırır. İki gəncin - İdrak bəylə Rəna xanımın toy məclisi münasibəti ilə yazılan şeirin nəsihət, öyüd çaları da var... gəncliyə sevgi də var, ümid də, inam da var toy məclisini tərənnüm edən misralarda:*

Fəqət, bu gün adlar özü,
Xəbər verir səadətdən.
Arzum budur - hər ikisi,
Bəhrələnsin bu vəhdətdən.
Səadətə qovuşanın,
Biri Rəna, biri İdrak.
İldən-ilə bu məhəbbət,
Çiçək açsın, yaşasın pak!

Şəddat müəllimi xarakterizə edən əsas keyfiyyət ondan ibarətdir ki, ona ruhən doğma adamlar heç vaxt onu tək buraxmayıblar, dövrün ziyalıları, zəka sahibləri həmişə onun yanında olublar. Heç şübhəsiz bunlardan biri də, onun ailəsinə doğma olan Həmid Abbas idi". Müəlliflər doğru yazırlar ki, Həmid Abbas mənimlə dostluğunun tarixini yazıb. Bunun da təkcə mənim üçün yox, cəmiyyət üçün dəyəri böyükdür. İnsanlar bir-birilə, eləcə də ailələr də daxil doğmalaşırsa, onda cəmiyyətin mənəvi mühiti daha saf, daha aydın olur. Cəmiyyətdəki əmin-amanlıq, bir-birini başa düşmə, doğmalıq hissləri insanları daha üstün həyata çağırır. Elə bilirəm ki, ayrı-ayrı ailələrin arasındakı sədaqətli dostluq münasibətləri cəmiyyət üçün də çox dəyərlidir. Yeni nəsillər özlərinin həyat özüllərini belə örnək münasibətlər əsasında qurmaqla cəmiyyətdə böyük uğur qazana bilərlər.

Müəlliflər Həmid Abbasın şeirinə çox yadın xarakteristika verir. Hətta burada elə maraqlı lövhələr var ki, mətni kəsmək, mətn arası müdaxilə ilə öz fikrimi bildirmək belə mənə çətin gəlir. O mənada ki, mətnin ümumi ahənginə xələl gətirməmək üçün heç nəyə dəymirəm: "*Həmid Abbas əslində Şəddat Cəfərovla dostluğunun əsil tarixini yazıb. Doğrudur, bu tarixi o, konkret rəqəmlə, günlə yazmasa da, poetik dillə yazıb. Kimsəyə elə gələ bilər ki, bu şeir iki gəncin toyuna təbrikdir, amma əslində böyük dostluğun arenasında görünən sevinc dolu bir günün təsvirini versə də, tərənnümünü eləsə də bu şeirdə bir-birinə zaman-zaman sədaqətli olan insanların dostluq tarixini görürük. Yoxsa Həmid Abbas sıradan bir insan kimi toyda iştirak eləsəydi, Şəddat müəllimin oğlunun toyu üçün belə bir poetik təbriki qələmə ala bilməzdi. Həmid Abbas Rəna adında işıq, İdrak adında dərketmə görür, ağıl görür. Və işıqla ağılın vəhdətində xoşbəxt bir gələcək görür. Və eləcə burada da təkrar etməyə dəyər ki, böyük insanların dostluğu gəncliyin yoluna işıq tutur. Onların mənəvi mühitinə dəyərli məsləhətləri ilə zənginlik bəxş edir. Bir sözlə, bu işıq doğru yolu, düz yolu göstərir.*

Bir arzum da var gənclərə,
Ata-ana qədri bilin.
Yollar boran-qar olanda,
Gözlərindən nəmi silin.

Ömrün çətin yollarında,
Güzəştə də gedin hərdən.
Qaraltmayın qanınızı,
Siz mənasız bir xəbərdən.

Göründüyü kimi Həmid Abbas kimi müdrik bir ağsaqqalın, cəmiyyət içərisində sözü eşidilən bir şəxsin poetik müraciəti sanki, Nizami "Xəmsə"sindən gələn bir səsi yada salır, ötən zamanların öyüd, nəsihəti kimi qavranılır, "Qabusnamə"nin müdrik ruhu kimi dilə gəlir:



İdrak, oğlum, Rəna, qızım,
Xoşbəxt olun siz qış, bahar!
Hər vaxt mehriban yaşasın,
Cəfərovlar, Əsgərovlar.

Həmid Abbas bir ağsaqqal kimi, bir müdrik kimi təkcə toya xeyir dua vermir. Həm də insanları birliyə çağırır. Mehribanlığa, doğmalığa səsləyir". Həmid Abbas şeirlərində müdrik bir ağsaqqal kimi gənclərə öyüd-nəsihət verməyi də xoşlayırdı. Sanki gənclərə təlqin edirdi ki, əgər həyatda bir-birinə dayaq olsalar, onda həyatı yaşamaq onlar üçün heç də çətin olmaz.

Doğrusu, Həmid Abbasın sədaqətli dost kimi bizim ailə mühitini tərənnüm etməsi mənim üçün bu gün də çox dəyərlidir. *"Böyük portretin işığında"* kitabının ən maraqlı səhifələrindən biri də Sevinc xanımla Namiq bəyin toyuna həsr olunmuş şeirin təhlilidir. Həmid Abbas mənə həsr etdiyi bir şeirini "Ömrünüz gülüstan olsun" adlandırır. *"Şeirdəki səmimiyyət, doğmalıq ailə quran gənclərin məhəbbətinin tərənnümü çox duyğulu bir ilhamla qələmə alınıb.*

"Gülüstan"da keçir bu gözəl məclis,
Cavanlar, ömrünüz gülüstan olsun!
...Beləcə mehriban yaşayın hər an,
Qoşa ürək kimi, qol-qanad kimi.
İstəyim budur ki, bütün atalar,
Sevinsin dostumuz bu Şəddat kimi.

Həmid Abbasın dostu Şəddatın övladının toyunda çıxışı kimi səslənmiş şeirin, əlbəttə ki, baş qəhrəmanlara istinad kimi Şəddat müəllimin özünü görür. Təsadüfi deyil ki, bütün ataları sevinən görmək istəyini Şəddatla bağlayır, yəni bir ata övladının toyunda necə sevinirsə, şair arzulayır ki, bütün atalar beləcə sevinsinlər. Bu sənətkarın insanı xoşbəxt görmək istəyidir. Amma, sənətkar onu da yaxşı bilir ki, hər şey yalnız istəklə başa gəlmir. Şübhəsiz hər bir atanın, ananın sevinci övladların xoşbəxtliyi ilə bağlıdır. Bunun üçün gərək övladları ağıllı böyüdəsən, düzgün tərbiyə edəsən. Övlad yaxşı oxumağı, qazandığı mərifəti və ona aşılanmış bacarıqlar sayəsində cəmiyyətdə ad, san qazanmalıdır, öz yerini tapmalıdır. Əgər cəmiyyətdə bir gənc özünün layiq olduğu yeri tuta bilirsə, onda cəmiyyətin çiynində ağır yükə çevrilmir. Öz zəhməti ilə yaşamağa üstünlük verir. Beləliklə, insanlığa onun faydası dəyir. Şübhəsiz, cəmiyyətə fayda verən insan kök atır, qol-budaq atır. Yetirdiyi zəhmət meyvələrini başqalarından əsirgəmir". O vaxt gənc idik. Həyatın heç bir çətinliyi bizi qorxutmurdu. Əlbəttə, həm də qarşıda bizi nələrin gözlədiyini də tam aydınlığı ilə görə bilmirdik. İnsanlar üçün bu, təbiidir. Ancaq bir məsələni daha yaxşı bilirik. Övladlarımızı arzularımıza, məramlarımıza uyğun böyütməyə çalışmışdıq. Mən bütün hallarda belə düşünürdüm ki, əgər övlad yaxşı oxuyursa, demək, o, gələcəkdə öz həyatını düzgün qura biləcək. Əlbəttə, təkcə yaxşı oxumaqla da iş aşmır. Bunun üçün gərək həyatı da öyrənəsən. Doğrudur, yeni nəslin tərbiyəsində cəmiyyətin, mühitin rolu böyükdür. Hər halda valideynlərin şəxsi nümunəsi də övladların həyata hazırlığında kifayət qədər təsiredicidir. H.Abbas da öz şeirində təkcə mənim övladlarımı yox, həm də cəmiyyət üçün faydalı ola biləcək gənc nəslin tərbiyəsini ümumiləşdirməyə çalışmışdır. Şübhəsiz, bir dostu olaraq məni də necə tanıyırsa, eləcə də övladlarıma haqqımda bir daha poetik bir dillə məlumat verir. Elə bil ki, onlara çatdırırdı ki, gərək atalarının adlarına layiq olsunlar.

Mənə elə gəlir ki, "böyük portretin işığı" kitabının müəllifləri yazdıqları mövzunu yaxşı öyrəniblər. Təkcə əsərin qəhrəmanını, yəni məni tanımaqla kifayətlənməyiblər. H.Abbasın şeirini yaradan psixoloji durumu da dərk ediblər, düzgün qavrayıblar. Çox görmüşük ki, könlümüzü fərəhləndirən ağıllı bir gəncin haqqında danışanda deyirlər ki, bu, Tanrı vergisidir. təkcə elə bu ifadə bəs edir ki, şair Tanrı vergisinin nə demək olduğunu poeziyaya çevirsin. Poeziyaya çevrilmiş həyat həqiqəti insanların ruhuna daha yaxın olur.

Mətndən də göründüyü kimi, Həmid Abbas bütün ataları sevinən görmək istəyir. Öz övladları ilə öyünməklərini istəyir. Əlbəttə, cəmiyyətə faydalı olan övladları ilə. Şübhəsiz, bu, istəkdir. Bir şair öz xalqına ən yüksək hisslərlə üstünlük diləyir. Demək, mənim övladlarıma da elə bu istəklə yanaşır: "*Şair Həmid Abbas da dostu Şəddat Cəfərovun övladlarını cəmiyyətdə hörmət, izzət sahibi kimi görür və poetik duyğuları ilə onlara xatırladır ki, sizin əsas istinadınız böyük ata adı daşıyan Şəddat müəllimin özüdür. İki ürək eyni duyğular üstə köklənirsə, onların həyatı xoşbəxtlik nəğmələrinə çevriləcək. Şair şeirin növbəti hissəsində ailə xoşbəxtliyi üçün bir istinadın da dünyaya gələcək övladlar olduğunu yada salır:*

Körpələr bürüsün dörd bir yanını,
O da baba olsun kaş mənim kimi.
Onda anlayar ki, tək nəvə imiş,
Ömrün şah pərdəsi, həm sarı simi.

Şeirin məzmunundan belə başa düşülür ki, həmin dövrdə Həmid Abbas özü babadır və baba nəvə ünsiyyətinin nə demək olduğunu yaxşı bilir. Elə ona görə də dostu Şəddatın da onun özü kimi bir gün baba olmağını qəlbinin bütün istəyi ilə dilə gətirir. Və burada çox maraqlı bir obraz da işlədir. Qeyd edir ki, əgər dostu Şəddat da baba olsa, onda yaxşı bilər ki, nəvələr ömrün şah pərdəsidir, könül tarının sarı simidir. Şair yeni ailə quran gəncləri gənclik gülüstanında təzə cücərən çiçəklər adlandırır. Şair nişan məclisinin "Gülüstan" sarayında qurulmağına da təsadüfi baxmır, bunu taleyin xeyirə yozum qisməti kimi mənalandırır. Gənclərə heç vaxt solmamağı, məhəbbətlərinin, sevgilərinin təzəliyini qoruyub saxlamağı arzulayır". İndi şeirdən verilmiş parçaları da diqqətlə oxuyuram. Əlbəttə, bu şeirin təhlilinə həsr olunmuş hissələr də o qədər həssaslıqla yazılıb ki, sanki bir sevgi romanının ən maraqlı səhifələri kimi oxunur. Bunun da əsas səbəbi odur ki, Həmid Abbasın şeiri çox həyatidir. Müəlliflər şeiri təhlil edərkən ayrı-ayrı misraların yaratdığı təəssüratı ilhamla qələmə alırlar.

Həmid Abbas özü də həmişə deyirdi ki, insanın gərək könlü zəngin olsun. Mənəvi aləmi xəzinə olan insanlar var ki, onlarla dostluq, doğmalıq münasibətləri həyatı daha mənalı edir. Bir sözlə, bu gün mənim özüm üçün Həmid Abbasla dəyərli dostluğumuzun təmənnasızlığa güvəndiyini əsil insani münasibətə əsaslandığını yada salmaq çox dəyərlidir. Həmid Abbasla biz şənlik məclislərimizdə bir yerdə olardıq. Onun şirin, doğma münasibətini əks etdirən söhbətləri də elə şeirləri kimi çox dəyərli idi.

Müəlliflərin Həmid Abbasın nəğmələri adlandırdığı hissənin bugünkü oxucu üçün də faydalı tərəfləri çoxdur. Qoy hər kəs bu lövhələri oxuduqca bir daha inansın ki, həyatda gözəl dostluq münasibətləri bəşəri bir dəyərdir. İnsanlığın mənəviyyat xəzinəsini zənginləşdirən dəyərdir.

(Davamı var)